**Bolqarıstan ədəbiyyatı**



**Mayya DINYEVA**

# TƏTİL

*Hekayə*



Oğlanın bədəni nazik və zərif, qızınki isə dolu və elastik idi. Gəncliyin təzə-tər qoxusunu verən, bulaq suyu kimi saf və şəffaf olan bu iki varlıq yenidən bir-birinə qovuşmuşdu. Səhər səssiz-səmirsiz, sanki barmaqlarının ucuyla yeriyərək yaxınlaşırdı. Onun gəlişini birinci quşlar duymuşdu. Biri mahnı oxuyur, digəri isə səsinə hay verirdi. Bir qədər sonra bütün quşlar qəfildən oyanaraq oxumağa, cividləşməyə, qanad çalmağa başladılar. Amma oğlanla qız heç nə eşitmirdi. Onların gözlərində ulduzlar hələ də parıltı saçırdı. Qaranlıqlaşmamış baxışlarda odlu bir istək gizlənmişdi. Nə dodaqlar doymaq bilirdi, nə də əllər.

Hava işıqlaşır, zülmət əriyib yox olurdu. İndi oğlan qızın sifətini açıq-aşkar görürdü. O, buraya gecə yarısı bütün kəndin dərin yuxuya daldığı vaxt gəlmişdi. Oğlan həmişəki kimi hasardan tullanıb, eyvandakı pillələri qalxaraq kölgə kimi qızın otağına daxil olmuşdu.

Qız başını qaldıraraq dirsəyinə söykəndi və barmaqlarıyla oğlanın gülümsəyən dodaqlarını qapadı. Oğlan sevgilisini heyranlıqla seyr edərək onun gözəlliyindən zövq alırdı. Qızın zərif, yumru sifətində iti cizgilər sezilirdi: illər ötdükcə onlar daha da dərinləşəcək, bədən ağırlaşacaq, yetişib ötmüş sünbül kimi gur, itaətsiz saçlar seyrəlib ağarmış ipliyə dönəcəkdi. Həmin dəyişkənliyin səssiz-səmirsiz şahidi isə qızın mənsub olduğu nəsildəki gözəllərin qoynunda doğulub yaşadığı və dünyasını dəyişdiyi bu köhnə evin divarları olacaqdı.

Oğlan qızın gözlərinə baxır, saçlarını tumarlayırdı. İndi onun bədənində yenidən bir istək baş qaldırmışdı. On ildən sonra oğlan artıq güclü-qüvvəli kişi, iki uşaq atası, tanınmış şəxsiyyət və dərin zəka sahibi kimi tanınacaqdı. Amma bütün bunlar sonra olacaqdı. İndi isə mülayim havada göyərçinlərin qurultusu eşidilirdi. Ayın üzü gülür, qaranquşların civiltisi getdikcə eşidilməz olurdu. Bu, onların son səhəri idi. Oğlan səfərə gedəcəkdi. İllər ötüb keçəndən sonra haçansa təsadüfən bir-biri ilə rastlaşdıqları vaxt ötəri gülümsəyib tez-tələsik salamlaşmaqları nəzərə alınmazsa, onlar bir daha görüşməyəcəkdilər...

Ay göyün ən uca nöqtəsində idi və sübh çağında onun işığı uzaq və soyuq görünürdü. Oğlanla qız açıq pəncərənin önündə dayanıb bir-birinə qısılaraq gülümsəyirdilər. Artıq vidalaşmaq məqamı gəlib çatmışdı. Qonşu otaqda heç nədən şübhələnməyən və qulaqları zəif eşidən nənə yatmışdı. Qocalar bir qayda olaraq həmişə erkən oyanırlar. Oğlan mehribanlıqla əlini qızın saçlarında gəzdirdi. Sonra da astaca, lap çinar ağacının tükü kimi pəncərədən tullanıb georgin çiçəyinin ləkinə düşdü və oradan sonuncu dəfə otağa boylanaraq gözdən itdi. Asta fit səsi yolun ən qorxulu hissəsinin arxada qaldığını bildirirdi. Səhərin soyuğunda xəfifcə üşüyən və indi daha arxayınlaşan qız yuxulu gözlərini ovuşduraraq yorğanın altında yox oldu.

Artıq iki ay idi ki, coşqun və yuxusuz gecədən sonra yamyaşıl, sükunətli, səssiz-səmirsiz kənd yolu və gecə-gündüz axıb süzülən bulağın bəmbəyaz suyu oğlanı vəcdə gətirərək onu dünyanın ən xoşbəxt insanı etmişdi. Sevgi oyunlarını uzun müddət yaddaşında yaşatmaq üçün oğlan hələ çox gənc idi. Sevgilisinin həsrətini çəkmək, həyəcan keçirmək qızların qismətidir. Oğlanda isə gecə gəzintiləri özünə inam hissini artırırdı. Axşamlar başına yığışan dostları qibtə ilə onun söhbətlərinə qulaq asırdılar. Ancaq erkən sübh çağının oğlana bəxş etdiyi sirli fərəh hissini o, heç kəslə bölüşmürdü. Yenə də hər şey xoşbəxt sonluqla qurtarırdı: heç kim onu görmürdü, nənə isə dərin yuxuda ikən oğlan açıq havada cəsarətlə, tək-tənha yol gedirdi. Qanad çalan quşların səs-küyündən, çökə ağaclarının ətrindən, yarpaqların pıçıltısından onun sinəsi coşub-daşırdı. Aşağılardan çayın gurultusu eşidilirdi. Oğlan isə heç gözünün ucuyla da o tərəflərə boylanıb baxmırdı. Çayın sərin suyu hələ sonra-günorta üstü, havanın çox bürkülü olduğu bir vaxtda onun qaynar bədəninin karına gələcəkdi.

Oğlan bulaq başına tələsirdi. Burada o, ayaq saxlayıb çeşmədən süzülən suyu ovcuna dolduraraq üz-gözünə çırpır və bununla sanki sevgi gecəsi haqqında xatirələrini yuyub yaddaşından təmizləyirdi. İndi oğlan başdan-ayağa qədər islanmışdı. Əhval-ruhiyyəsi təzələnmiş, şad-xürrəm olmuşdu. Dadlı bulaq suyundan elə hey içir, doymaq bilmirdi. Onun qəlbində qeyri-adi bir rahatlıq yaranmışdı. Yalın ayaqları sanki onu mirvari havada şehli otlar və tozlu cığırlar üzərində gəzdirirdi. Gündoğan tərəfdə göyün üzü qızarırdı.

Oğlan darvazanı itələyib sakitcə evə daxil olaraq otağına girdi. Bura isti və qaranlıq idi: pəncərənin qalın pərdəsi işığın qarşısını kəsməklə yanaşı, milçək və ağcaqanadların da içəriyə yol tapmasına imkan vermirdi. Oğlan tez-tələsik soyunaraq yatağa uzandı və bir neçə dəqiqədən sonra dərin yuxuya getdi.

* * *

İllər ötüb keçəndən sonra oğlan ər, iki uşaq atası olacaqdı. Yenə illər keçəcək, onun oğlanları yanaşı qoyulmuş çarpayılarda yatıb yuxuladıqları vaxt səhər tezdən oyanmış kişi arvadıyla həyətdəki albalı ağacının gölgəsində oturub kofe içəcəkdi. Sonra da tilovu götürərək tanış küçə ilə sevimli bulağın və bir zaman görüşdüyü qızın yaşadığı evin yanından ötüb keçərkən ətrafdakı ağaclar, hasarlar və evlər ona sanki bəstəboy görünəcəkdilər. Məzuniyyət götürüb hər dəfə böyük şəhərin qayğılarından qaçaraq doğma yerlərə qayıdışı bax, həmişə bu qayda ilə davam edəcəkdi. Aşağıda isə dağ çayı əvvəlki kimi şırıltı ilə axıb gedəcək, haçansa qorxu-hürkü hissi ilə onun səhərlər aşıb keçdiyi pəncərə isə son dərəcə xırda görünəcəkdi.

* * *

Oğlan yatırdı. Bir də ayılıb baxdı ki, nənə mətbəxdə bişdüşlə məşğuldur: qoğal bişirib, ət qızardıb, fincanlara isti süd süzüb. Oğlan elə ayaq üstəcə nahar edərək şən və qayğısız halda çay kənarına, onu məzəli zarafatları ilə qarşılayan dostlarının yanına tələsəcəkdir.

Axşam isə çimərək səliqə ilə nəmli saçlarını darayıb skamyada əyləşəcək və sevdiyi qızın yolunu gözləyəcək. Qız gələndən sonra ona təcili yola düşəcəyini bəyan edəcək və tezliklə geri qayıdıcağını, hər şeyin yenə də əvvəlki tək olacağını, daha bir də onların ayrılmayacağını bildirəcəkdi. Fəqət qəm-qüssənin kölgəsi onların gözlərində hiss olunmayacaq. Axı, ayrılıqdan əzab çəkmək gənclik üçün deyil. Dərd-ələmdən zövq almaq isə yaşlı adamların imtiyazıdır.

**Tərcümə edəni:**
**Ağaddin BABAYEV**